# BİZİ BİR SEVGİNİN QARĞIŞI TUTDU

### Dünyaya yazığım gəlir

Bir qoca kişidir, gözü-könlü tox,
Halına yanandan yandıranı çox.
İçindən sökülür, xəbərimiz yox,-
Mənim bu dünyaya yazığım gəlir.

İlanı dolayıb özü belinə,
Özü də zəhəri səpir dilinə.
Başını tapşırıb başsız əlinə,-
Mənim bu dünyaya yazığım gəlir.

Həlimdir, zalımdır, sərtdir bu dünya,
Alçaqdır, namərddir, mərddir bu dünya.
Vallah özü boyda dərddir bu dünya,-
Mənim bu dünyaya yazığım gəlir.

Yüzün uçurmamış birini tikmir,
Ayağın çəkəndən əlini çəkmir.
Dərdini çəkənin nazını çəkmir,-
Mənim bu dünyaya yazığım gəlir.

Fürsəti hay-həşir salana verib,
Qeyrəti acından ölənə verib.
İndi də meydanı yalana verib,-
Mənim bu dünyaya yazığım gəlir.

Özündən küsənlə küsülü qalıb,
Məhəbbət bir küncə qısılı qalıb.
Taleyi bir tükdən asılı qalıb,-
Mənim bu dünyaya yazığım gəlir.

İtirib ağlını bu sərsəm nəsə,
Özü də tanımaz özünü görsə.
Hamının yazığı mənə gəlirsə,
Mənim bu dünyaya yazığım gəlir.

1991

### Elə kimsəsizəm...

Elə kimsəsizəm... Elə soyuqdur...
Nəfəsim sinəmə sancılan oxdur.
Ah!..ürək açmağa bir kimsə yoxdur;
Ürəkdən çəkdiyim bu ah üşüyür.

Elə kimsəsizəm... Elə dalğınam...
Görsə tanımazdı doğmaca anam.
Min kərə etdiyim savabdan yana,
Bir yol etmədiyim günah üşüyür.

Elə kimsəsizəm... Elə qərib, tək...
Çırpınıb göynəyir sinəmdə ürək.
Görən başımıza nə gəlir, görək;
Axşam sızıldayır, sabah üşüyür.

Elə kimsəsizəm... Elə sənsizəm...
Elə yöndəmsizəm... elə yönsüzəm...
Elə tanrısızam, elə dinsizəm;
Göydə mənə baxıb Allah üşüyür...

°, 2018

Görən nə vaxt bitəcək
Bu sınıq-salxaq ömür?..
Taleyin yedəyində
Gedən bir qorxaq ömür.

Görən harda bitəcək;
Yerdə, suda, havada?..
Yataqda gəbərəcək,
Ya döyüşdə, davada?..

Görən necə gələcək
Açılmamış sirr-ölüm?..
Ya şərəfli bir sonluq,
Ya şərəfsiz bir ölüm?..

06.05.2019

### Yenə bu şəhərdə...

"Yenə bu şəhərdə üz-üzə gəldik",
Məni bu şəhərə aşiq edən qız.
Sevib, sevdiyini keçmişdə qoyub,
Məchul gələcəyə çıxıb gedən qız.

Sənə demədiyim bir sözə görə
Özünü od-alov içinə atdın.
Bir anda hər şeyi alt-üst eləyib,
Göyəmi çəkildin, yerəmi batdın?..

Budur, dayanmışıq yenə göz-gözə,
Arada bir küçə... bir də otuz il.
Bir küçə adlamaq o otuz ili
Geri qayıtmaqdır birdən elə bil.

Günaydın, bu mənəm,- ağsaçlı qoca,
Nəvə yerişinə sevinən nənə.
Qoyduğun keçmişdən çıxıb gəlirəm;
Dalaşaq, küsüşək, barışaq yenə.

...Hanı o gur saçlar, ürkək baxışlar?
Ruhuma can verən o şəhla gözlər?..
Xəfif bir təbəssüm gördüm üzündə,
Altında nə böyük dərd, kədər gizlər.

Dost-tanış içində gündüzlər gülüb,
Gecələr ağlayıb dərd çəkən qadın.
Bircə mənə görə bütün keçmişin
Üstündən qara bir xətt çəkən qadın.

Yenə bu şəhərdə... bu ayda bizi
Baharın çiskini, yağışı tutdu...
Xəyanət etmişdik biz o sevgiyə,
Bizi o sevginin qarğışı tutdu.

İki xəyanətkar - iki günahkar;
Belə yazılıbmış bizim üçün də...
Hər gün yalan dedik, günah işlədik,
Yaşadıq bir ömrü günah içində.

...O vaxt demədiyim o bircə sözü
İndi min yol desəm, qəlbinə yatmaz.
Boğub öldürdüyün keçmişimizi
Bu gündən atılan top da oyatmaz.

Mən daha keçmişdə qala bilmərəm,
Sən də gələcəkdən çıxıb gəlirsən.
İndi biz hamını başa düşərik,
Bizi başa düşməz heç kəs, bilirsən.

İndi gec olsa da, bilməliyik ki,
İnsan taleyilə oynamaq - günah.
Dünənki səhvlərin öz cəzasını
Bu gün də olmasa, verəcək sabah.

İndi gec olsa da, bilməliyik ki,
Bir yanlış addımdan iki can yanar.
Sevən sevdiyinin yanında ancaq
Düzgün qiymət alar, dəyər qazanar...

...Sevgini əfsanə, nağıl bilən qız,
Leyli də, Məcnun da olub həmişə.
Ay məni keçmişdə qoyub gələn qız,
Gəl yapış qolumdan, gedək keçmişə.

03.04.2018

### 37-də şairlər...

Kimi şeir yazdı, sevdi, sevildi;
Dostun yasına ağladı, sevincinə güldü.
Baxmadı ağına, bozuna,
Çoxuna, azına.
Yaşadı həyatı həyat kimi.
Müşfiq demiş: "kəhər yallı at kimi".
Az yaşadı, saz yaşadı,
Kişi kimi düz yaşadı.
Öləndə də kişi kimi
Bir yol öldü.
Ölümü də həyat bildi.
Kimi də qorxusundan az yazdı,
Sevdiyini demədi,
Nifrətini bildirmədi,
Suyu da üfürüb içdi.
Bəzən sevdiklərindən;
Doğmaca balasından,
Yaxın dostundan da keçdi...
Yavaş-yavaş
Hər sudan quru çıxdı.
Sahildə durub əli qoynunda
Boğana-boğulana baxdı...
Kimisi bir az da dərinə getdi,
Siyasət toru toxudu.
Boğazdan yuxarı şeir yazdı,
Ürəkdən oxudu.
Tiranları təriflədi,
Cəlladlara ata dedi -
"Xalq şairi" adı aldı.
Gur səsiylə salonları silkələdi...
Bir saf sözü, pak şeiri
Bir ürəyi titrətmədi,
Bir əsəbi soyutmadı.
Çox yaşadı,
Tox yaşadı...
Gah bir sözü, işarəsi,
Gah sadəcə soyuqluğu,
Lallığıyla çoxlarını göndərdiyi yerə
Bir gün də o özü getdi.
Sanki birdən yoxa çıxdı,
İynə kimi gözdən itdi.
Özü getdi, -
Üfürdülmüş, şişirdilmiş
Bir şar kimi adı qaldı,
Neçə doğması, yadı qaldı.
Soyuq, qərib salonlarda səsi qaldı.
Bir də nə vaxtsa ürəkdən
Yazıb-yaratmaq həvəsi qaldı...

15.09.2018

* * *

Varmış taleyimdə ana itkisi,
Ana ölümünü gözüylə görmək.
Məni bu dünyaya gətirən kəsi
Aparıb əlimlə torpağa vermək...

Qardaşlar fikirli, bacılar ağlar,
Daraldı gözümdə kənd birdən-birə.
Məni bu yerlərə bağlayan bağlar
Bir anda qırılıb töküldü yerə.

...Sənə sağlığında neylədim ki, mən
Üstünə qiymətli bir daş gəzirəm.
Adını tarixə yazdırmalıykən,
Cansız başdaşına şeir yazıram.

Yanıb-yaxılıram bəlkə nahaqdan,
Anam günəş kimi doğar hər səhər.
Analar gömülən qara torpaqdan
Məhəbbət göyərər, şəfqət göyərər.

19.01.2020

### Sənə şeir yazıram

Həyat bir anlıq donur,
Göy qaralır, gün sönür,
Xəyalım quştək uçur,
Bütün dünyanı qucur.
Heç nə görmür gözlərim,
Gül qoxuyur sözlərim, -
Sənə şeir yazıram.

Başım üstdə uçuşub
Qanad gərir mələklər,
İçimdə puçurlayır
Gizli arzu, diləklər.
Şeirimə ahəng tutur
Göydə əsən küləklər...
Sənə şeir yazıram.

Kino kimi gözümdə
Hər görkəmin, hər yaşın...
Sətirlərdə bərq vurur
İnci kimi göz yaşın.
Uzaqdan ovsunlayır
Qəmli, süzgün baxışın;
Sənə şeir yazıram.

Sən ey könül odamın
Əbədi göy qurşağı.
Sən hardasa, - uzaqda
Yad evin yaraşığı...
Sənsizlikdə sozalır
Can evimin işığı;
Sənə şeir yazıram.

Mən səninlə gəncləşir,
Mən sənsiz qocalıram.
Yoxluğundan öc alıb
Xəyalına dalıram.
Sənsizlikdə can verib,
Səndən ilham alıram, -
Səndən şeir yazıram,
Sənə şeir yazıram.

28.03.2019

### Ən ağrıyan yerim vətəndir

Hər kəsin öz qəlbi, öz duyğusu var,
Həyat düşüncəsi, söz duyğusu var.
Hər duyan ürəyin yüz qayğısı var,
Mənimsə tək dərdi-sərim vətəndir.

Sənin, mənim varsa bizdə, bizim yox,
Bu yerdə hiyləyə, məkrə dözüm yox.
Dostlardan gizli bir sirrim, sözüm yox,
Bircə açılmayan sirrim vətəndir.

Bir yol tanıyırıq - o da haqq yolu,
Tariximiz qan dolu, xəyanət dolu.
Vətəndə Babəkin kəsilən qolu,
Qürbətdə soyulan dərim vətəndir.

Mənim öz taleyim, öz alın yazım...
İlk eşqim, gözümdə qalan murazım...
İkiyə bölünüb, bölən Arazım,
Arazla qovuşan Kürüm vətəndir.

Bəzən çox tələsir, bəzən gec gəlir,-
Bütün dərdlərimə bu dərd güc gəlir.
Ürəyim sıxılır, başım gicəlir,
Fəqət ən ağrıyan yerim vətəndir.

29.01.2020

### Yaşamaq olmur

Yenə varlığımda tufan, qalmaqal,
Nə qədər cavablı-cavabsız sual.
Yapışıb yaxamdan yüz fikir, xəyal
Ora-bura dartır...yaşamaq olmur.

Ha çırpın, çabala öz qəfəsində;
Ürəklə ağılın məngənəsində.
İçimdə hayqıran vicdan səsindən
Qulaqlarım batır...yaşamaq olmur.

Fikirlər içində hər gün, hər ayın...
Yağı yağmasında büllur sarayın.
Bu daş ürəklərə çatmaz harayın
Fələklərə çatır...yaşamaq olmur.

Qarışır gözümdə ağlar, qaralar,
Yarımçıq bütövlər, bütöv paralar.
Hər gün açıldıqca köhnə yaralar,
İçim qana batır...yaşamaq olmur.

Bu kimdir,- seçilmir başdan ayağı?
Yağıya şam olur gözünün yağı.
Adını şir qoyub...pişik sayağı
Hər tumara yatır...yaşamaq olmur.

Yüz bayquş ulayır bir haqq söz desən,
Dağa zirvə desən, düzə düz desən.
Dünyanın ən ləziz təamın yesən,
Ağzın zəhər dadır...yaşamaq olmur.

Kimə çatasıdır şeirin, sözün?
İçini yandırar alovun, közün.
Yaşamaq xətrinə arabir özün
Özünü aldadır... yaşamaq olmur.

29.07.2020

### Mehmetcik gəlir

Bu şanlı günlərdə, zəfər ilində,
Yarpaqlar solmasın şimal yelində.
Lalələr açacaq Gəncə çölündə, -
Şükürlər bu günə, mehmetcik gəlir.

Ayağı altında halalca torpaq,
Başının üstündə hilallı bayraq,
Bir dəfə gəlmişdi düz yüz il qabaq,
Yüz il sonra yenə mehmetcik gəlir.

Diləklər dil açır, çönür xəyallar,
Kinli ürəklərdə sönür xəyallar.
Dönür həqiqətə, dönür xəyallar;
Ruh kimi bədənə mehmetcik gəlir.

Axşamüstü Xanın zil səsi gəldi,
Könlümə yaşamaq həvəsi gəldi.
Şuşadan qələbə müjdəsi gəldi, -
Bu səsə, bu ünə mehmetcik gəlir.

*(Davamı 9-cu səhifədə)*

# ZƏKİ BAYRAM YURDÇU -ZƏKULLA BAYRAMLI

*1965-ci ildə Ağcabədi rayonunun Qaravəlli kəndində doğulub, orta təhsilini həmin kəndin orta məktəbində alıb. 1990-cı ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun "Azərbaycan dili və ədəbiyyatı" fakültəsini fərqlənmə diplomu ilə bitirib, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranrurasında təhsilini davam etdirib. 1994-cü ildə "Füzuli yaradıcılığı və çağdaş ədəbi-nəzəri fikir" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Hazırda həmin institutun aparıcı elmi işçisidir, "Füzulinin nəsr yaradıcılığı" adlı doktorluq dissertasiyası üzərində işləyir. Gənc yaşlarından şeirləri Ağcabədi rayon qəzetində, Gəncə və Bakı şəhərlərində müxtəlif mətbuat orqanlarında nəşr edilən Zəkulla Bayramlı 2 şeir kitabı və 2 elmi monoqrafiyanın müəllifidir.*



*1. Füzuli və çağdaş ədəbi-nəzəri fikir (monoqrafiya), Bakı: Elm, 2010.*
*2. Səni kimə deyim, kimə söyləyim...(şeirlər), Bakı, Elm və təhsil, 2015.*
*3. Füzuli... və...(məqalələr toplusu), Bakı: Elm və təhsil, 2018.*
*4. Mən səni neyləyim...(şeirlər), Təbriz: Aydın kitab, 2021.*

*(Əvvəli 8-ci səhifədə)*

Dikəldir belini qoca qarılar,
Qorxudan yağının bağrı yarılar,
Namərdə, nakəsə dünya dar olar;
Bürünüb kəfənə mehmetcik gəlir.

Son verək ağrıya, son verək aha,
Ümidlə, inamla baxaq sabaha.
Nöqtələr, nidalar yığışsın daha,
Son söz olsun sənə; mehmetcik gəlir.

Getdiyi ölkəni yerdən götürər,
Yetdiyi bölgəyə müjdə yetirər.
Özüylə ədalət, zəfər gətirər,
İmana gələnə mehmetcik gəlir.

Ağrıdağ, Murovdağ, dönüm başına,
Qanımız qarışmış hər qarışına.
Yallını qatarıq Mehtər marşına,
Bu toya, düyünə mehmetcik gəlir.

Yazılsın ömrümə bu bircə anım,
Sinəmə sığmayan hiss-həyəcanım.
Gözün aydın olsun, Azərbaycanım,
Vətəndən vətənə mehmetcik gəlir.

22.11.202

## Səni necə ağlayım...

Şəhidlərimizin ruhuna
Gecələr gec yatsam da oyanıram obaşdan,
Səngərdaşın olmadım bu müqəddəs savaşda;
Səni necə vəsf edim bu görkəmdə, bu yaşda? -
Səni necə oxşayım?..Səni necə ağlayım?..

Baxıram, gözlərində həyat eşqi qaynayır...
Qardaş, bacı don qalıb, qız-gəlinlər göynəyir.
Anan tabut önündə havalanıb oynayır;
Bir az içdən hönkürüm, bir az incə ağlayım.

Yurd uğrunda öləni, çox da ölməz bilirəm;
Bu ağrılı sevdanı hər kəs bilməz, bilirəm.
Ağlamaqdan sənin də xoşun gəlməz, bilirəm, -
Gündüz görən olmasın, durub gecə ağlayım?..

Şimşək çaxan gözündən gülümsəyir zəfərim,
Qanından rəng alıbdır nur şəfəqli səhərim.
Şəkilinlə bəzənib hər kəndim, hər şəhərim, -
Yüz kənd-şəhər dolaşım, küçə-küçə ağlayım.

Kəsən əllər kəsilsin belə fidan budağı,
Neçə təzə dağ olsa, unutmarıq bu dağı.
Gül canına yaraşmaz hər bayatı, hər ağı, -
Bayatını, ağını seçə-seçə ağlayım.

Çox doğrular yalanmış, çox yalanlar doğrulur,
Torpaq vətən olunca halal qanla yoğrulur.
Bu döyüşdən, bu qandan yeni Millət doğulur,
Səni necə daşıyım, səni necə ağlayım?..

Qan içundə gülümsər üz-gözündən öpürəm,
Son döyüşdə bitməyən son sözündən öpürəm,
Bükülдüyün bayrağın ulduzundan öpürəm...
Səni necə yaşayım...Səni necə ağlayım?!

12.12.2020

## Tribun şair Əli Rza Xələflinin "Mən Şuşaya gedirəm" şeirinə cavab

Oxudum şeirini, şair Xələfli,
Gördüm ürəyini mən hərtərəfli.
Gəlin, inciməyək sələf-xələfli, -
Bizim yolumuzu gözləyir Şuşa.

Zirvədə yatıbmış qoca nər kimi,
Qalxdı şahə qalxan bir kəhər kimi,
Savalanda yatan igid ər kimi, -
Bizim yolumuzu gözləyir Şuşa.

Qartal yuvaqurub dağlar başında,
Nə vaxtdır boylanır əli qaşında.
Gör necə dirçəlib ahıl yaşında, -
Bizim yolumuzu gözləyir Şuşa.

Bakıda ruh kimi gəzənlər bizik,
Gözündən yüz Xəzər süzənlər bizik.
Şuşanın dərdini yazanlar bizik, -
Bizim yolumuzu gözləyir Şuşa.

Gedək, bir ocağa qalanmaq üçün,
Bir də göz yaşına bulanmaq üçün.
Pir deyib başına dolanmaq üçün, -
Bizim yolumuzu gözləyir Şuşa.

Atalar, analar uyğun gün seçir,
Bacılar, gəlinlər təzə don biçir.
Könül yollarımız Şuşadan keçir, -
Bizim yolumuzu gözləyir Şuşa.

Bu ağlı-qaralı çağlar bizimdir,
Ölənlər bizimdir, sağlar bizimdir.
"Fərman padşahındır, dağlar bizimdir", -
Bizim yolumuzu gözləyir Şuşa.

Ürəklər, ağıllar düşməsin bəndə,
Gedək bayatılı-nağıllı kəndə.
Ağıllılar getsin "ağıllı kənd"ə, -
Bizim yolumuzu gözləyir Şuşa.

O gün uzaq deyil, şair, üzülmə,
O günü nə yuxu, nə xəyal bilmə.
Elə bu istəklə yüz yaşa, ölmə, -
Bizim yolumuzu gözləyir Şuşa.

19.09.2021

## Bilirəm

Gör nə vaxtdır gecələr gec yatıb tez durursan,
İş-gücünü, vaxtını mənə görə qurursan.
Oğul-qız, bacı-qardaş mehrinə baş vurursan,
Nahaqdan ona-buna edilirsən, bilirəm.

O gizli, məsum dilək gül açmasa bu yaz da,
Həyata bağlayan bağ üzüləcək bir az da.
Bir "Kəsmə şikəstə"də, bir "Bayatı-Şiraz"da
Hər gecə yüz yol ölüb-dirilirsən, bilirəm.

Oxşayıram saçımda əllərinin izini,
Qoruyuram otaqda ayağının tozunu.
Bir hörümçək o gündən küncdə asıb özünü, -
Gümanlar caynağında didilirsən, bilirəm.

Birdən çiçək bitirər baharda qara daş da,
Dirçəlib pöhrə verər bəzən quru ağac da.
Bilsən də, bilməsən də bu görkəmdə, bu yaşda
Gah gizli, gah da aşkar güdülürsən, bilirəm.

Nə çıxar daşımaqdan gecə arana dağı?
Gedəcək ağlamaqdan şəhla gözlərin yağı.
Bəzən bu eşq əlindən ölüb də qurtulmağı
Guya ki, ən münasib yol bilirsən, bilirəm.

18.09.2018

# BİZİ BİR SEVGİNİN QARĞIŞI TUTDU

## Biz ayrı düşməsəydik...

Biz ayrı düşməsəydik o qovğalı illərdə,
Dağılmazdı bəlkə də ədalətin mizanı.
Yerindən oynamazdı uzaq-yaxın ellər də,
Pozulmazdı dünyanın öz səhmanı, nizamı.

Biz ayrı düşməsəydik, bilirsənmi, ürəyim,
Demirəm ki, dəmirim dönüb qızıl olardı.
Sənin mənə bənzəyən bir oğulun - dirəyin,
Mənim də sənin kimi gözəl qızım olardı.

Biz ayrı düşməsəydik qoşa uçan durna tək,
Çevrilməzdi səninçün məhbəsə hər bir gecə.
Bir eşqin çınqısından alışan iki ürək
Ayrılıqda közərib soluxmazdı gizlicə.

Biz ayrı düşməsəydik...Eh, nə bilim, bəlkə də,
Dostlar daha mehriban, düşmən də dost olardı.
Canımızdan da artıq sevdiyimiz ölkədə,
Hər kəs sevgi, səadət içində məst olardı.

Biz ayrı düşməsəydik...Beləcə, axşam-səhər
Düşük, dıydıq qadınlar irişməzdi efirdən.
Şərəfdən dəm vurmazdı bu şərəfsiz kişilər,
Bayağı, şit şeirlər yazılmazdı sevgidən.

Biz ayrı düşməsəydik, qarışmazdı haqq-nahaq,
Çadır şəhərcikləri qurulmazdı hər kənddə.
Qolu bağlı qalmazdı yağılarda Qarabağ,
Bizdən küskün düşməzdi Təbriz, Göyçə, Dərbənd də.

Biz ayrı düşməsəydik...Eh, nə bilim, bəlkə də,
Dostlar daha mehriban, düşmən də dost olardı.
Canımızdan da artıq sevdiyimiz ölkədə,
Hər kəs sevgi, səadət içində məst olardı.

23.12.2018

* * *

Üstünə bir şevgi işığı düşə,
Bir qızın sevdalı baxışlarından.
Bir yol başlayasan üzü keçmişə
Nurlanıb xatirə yağışlarından.

Ömrün varaqlana, yaş yaddan çıxa,
Gah çiskin-çən gələ, gah da gün çıxa.
Dumandan sıyrılıb bir qadın çıxa, -
Ürəyin islana göz yaşlarından.

Təbiət sevgili sözlər danışa,
Dağlar daşa dönə, düzlər danışa.
Dodaqlar titrəyə, gözlər danışa
Ruhların gizlicə çağrışlarından.

Deyəsən: Axınla axa bilmədim,
Dünyaya gözündən baxa bilmədim.
Ha qaçdım, ha qovdum, çıxa bilmədim
Bir uzun saçlının qarğışlarından.

Deyə: günahkaram mən başı daşlı,
Sən tək sevdiyimsən olsan da yaşlı...
Birdən yaxın gəlib o gözü yaşlı
Öpə üz-gözünün qırışlarından.

20.08.2020

